*Mən istəyirəm ki, Azərbaycanın qədim paytaxtı, Nizamilərin, Nüşabələrin Bərdəsi qısa müddət ərzində müasir tipli gözəl şəhərə çevrilsin.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

*Bu gün Bərdə ölkə miqyasında ən sürətlə inkişaf edən rayonlardan biridir. Çox şadam, çünki Bərdənin inkişafı üçün çox böyük işlər görülmüşdür və görülür.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Bərdə: itirilmiş şöhrət geri qaytarılır







***❐ Bərəkətli Bərdə torpağı qışla yaz arasında, sanki, son yuxusunu alır. Son illərin ən sərt qışını əkin-biçin adamları ilin ruzi-bərəkətli olacağının əlaməti kimi qiymətləndirirlər. Doğrudan da, payızdan barı yığılıb şumlanmış min hektarlarla sahəyə düşən yağış-qar, sanki, bu mövsümdə toxum səpiləcək tarla və zəmilərin təbii aratı oldu.***

Bu duyğu-düşüncələrlə son illərdə yenidən çəkilmiş Yevlax–Bərdə avtomagistralı ilə irəliləyib rayon mərkəzinin girişində yaradılmış əzəmətli memarlıq kompleksində ayaq saxlamalı olduq. Əslində, günbatan səmtdə yamaclardan zirvəyədək ağappaq qara bürünən Murov silsiləsinin adamı üşüdən gümüşü fonunda bu bir parça gülüstanın "yolçunu yolundan eləyən" cazibəsindən maşından düşmədən ötüb keçmək mümkün deyil. İlin bu vaxtında gül-çiçəyə bürünən bu əlvan adacıq dahi Nizaminin "Bərdə nə gözəldir, necə qəşəngdir, Yayı da, qışı da güldür, çiçəkdir" misralarının daşıdığı minillik həqiqəti bir daha yada salır.

Bu yerlərin bir günü qışı, bir günü yazı andıran vədəsində 3 minillik bir tarixin üstündə yeni intibahını yaşayan bir şəhərinin yaraşıqlı, gül-çiçəklə haşiyələnmiş küçələrindən keçib Bərdə Rayon İcra Hakimiyyətinin binasına gəldik. Bu yaxınlarda burada keçirilən ümumrayon toplantısında ötən ilin sosial-iqtisadi inkişafına yekun vurularkən topladığımız zəngin materialların xoş sorağı ilə rayon icra hakimiyyətinin başçısı Vidadi İsayevlə görüşmək, əhatəli yazı hazırlamaq istəyirdik. Başçının köməkçisi bildirdi ki, rayon rəhbəri operativ səhər iclasından sonra, adəti üzrə, tikinti meydançalarına baş çəkməyə gedib.

Biz də Vidadi müəllimlə tikilməkdə olan yeni Mədəniyyət Mərkəzinin həyətində görüşdük. Haləvaldan sonra başçı bu ilin önəmli vəzifələrindən söz açaraq bildirdi:

– Yaz-tarla işləri başlayanadək bütün diqqəti tikintisi ötən ildən bu ilə keçmiş obyektlərdə işlərin sürətlənməsinə yönəltmişik. Yeni tikilən mədəniyyət və gənclər mərkəzləri, 100 yerlik şəhər 4 saylı körpələr evi-uşaq bağçası belə ünvanlardandır. Yenidən qurulan Bərdə--Ağcabədi, 25,5 kilometrlik Yeni Daşkənd-Umudalılar yolları, Yuxarı Qarabağ kanalının maşın qolunda da yarımçıq işlər davam etdirilir.

Bərdə şəhəri ərazisində və Zümürxan kəndi ərazisində Tərtər çayı yatağında sahilbərkitmə işləri aparılır. 8 kəndin elektrik şəbəkəsi yenidən qurulur, 3 kənd qazlaşdırılır, Çələbilər kəndində modul tipli sutəmizləyici qurğu quraşdırılması üçün işlər aparılır. Bütün bunlar gündəlik nəzarətdədir. Çöl-bayırda işlər qızışmamış gərək bu tikintilərdə kəm-kəsir tam aradan qaldırılsın. O ki qaldı, builki əkin-biçinə, artan qayğılar qədərincədir.

Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı istehsalının dirçəldilməsi və inkişaf etdirilməsi istiqamətində başladığı işlər, bəlkə də, ölkədə hamıdan çox bərdəliləri hərəkətə gətirib. Bu işlərin uğurla davam etdirilməsi rayonun yaxın keçmişdə kənd təsərrüfatı sahəsində çatdığı zirvəni yeni hədəfə çevirməyə imkan yaradıb. Ən münbit və suvarılan torpaqlarda ötən əsrin 70-80-ci illərində Bərdə əməkçiləri zəhmət əfsanəsi yaratmışdılar. Biz müxtəlif səbəblərdən itirilmiş bu şöhrəti geri qaytarmaqla adamların rifahını qat-qat yüksəldə biləcəyimizə, rayonun öz büdcəsini formalaşdırdığı bir dövrdə daha çox tikib-qurmaq imkanı əldə edəcəyimizə möhkəm inanırıq.

Bərdəlilər çox hünərli, halal insanlardır. Onlara arxalandınsa ən müşkül məsələlər də sənə asan görünəcək. Onlar isə tutulan yolun doğru, faydalı olduğuna inandılarsa əfsanə yaradacaqlar. Bax bu qarşılıqlı inamla biz son illərdə qədim Bərdə şəhərinin, min illərin obalarının simasını tamamilə dəyişə bildik. Ölkə rəhbərinin dünya bazarına çıxarılası məhsullar əkib-becərmək çağırışı istiqamətində də ilk ildə uğurlu başlanğıc yaratmışıq.

Milli yol xəritəsində aqrar sahədə seçilmiş 9 strateji hədəf və 36 prioritet üzrə rayonda müvafiq tədbirlər həyata keçirilmişdir. Artıq pambıqçılığın, baramaçılığın inkişafı istiqamətində inamlı addımlar atılmışdır.

Uzun illik fasilədən sonra ötən il rayonda barama istehsalına başlanmış, 80 qutu toxumdan 4,465 ton ipək xammalı istehsal edilmişdir. Bu hesaba 160 nəfərin özünüməşğulluğu təmin edilmiş, ailələrə 35,7 min manatdan çox vəsait gəlmişdir. Bu il, ən azı, 8 ton barama istehsal etmək üçün tədbirlər görülür. İndidən kümçülər müəyyənləşdirilmiş, çəkil ağacları budanmış, yeni tinglər əkilmişdir.

Ötən il 2015-ci ildəkindən 1,8 dəfə çox ərazidə pambıq əkilmişdi. Bu il 8500 hektarda çiyid səpilməsi və 20 min ton pambıq istehsal edilməsi üçün ardıcıl işlər aparılır. Pambıq istehsalının artırılması üçün subsidiyaların verilməsi barədə möhtərəm Prezidentimiz İlham Əliyevin göstərişini pambıqçılarımız rəğbətlə qarşılamışlar. Təkrar əkinlərə görə 1725 nəfər istehsalçıya 121279 manat, pambıq əkinlərinə görə 323 nəfər istehsalçıya 695600 manat subsidiya verilməsi üçün sənədlər hazırlanmışdır. Əminik ki, rayonun pambıqçılıq sahəsində keçmiş şöhrəti qısa müddətdə geri qaytarılacaq.

Vidadi İsayevlə rayonun əsas tikinti meydançalarını gəzib dolaşandan sonra RİH başçısı aparatına qayıdıb ötən ilin əsas sosial-iqtisadi inkişaf göstəricilərinə birgə nəzər saldıq. Müsahibim qeyd etdi ki, 2016-cı il rayon üçün uğurlu olmuş, makroiqtisadi göstəricilərin sabitliyi təmin edilmişdir. İl ərzində 330,2 milyon manatlıq ümumi məhsul, o cümlədən 13,6 milyon manatlıq sənaye, 156,4 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir. Bütün maliyyə mənbələri hesabına 38,5 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Əhaliyə və ayrı-ayrı qurumlara 6,7 milyon manatlıq nəqliyyat, 1,1 milyon manatlıq informasiya və rabitə, 113,9 milyon manatlıq ticarət xidmətləri göstərilmişdir.

2015-ci ilə nisbətən ümumi məhsul 3,5 faiz, sənaye 9,6 faiz, kənd təsərrüfatı 5,8 faiz, nəqliyyat xidməti 5,2 faiz, informasiya xidməti 6,1 faiz, ticarət xidməti 5,1 faiz artmışdır. Rayonun bütün zəruri xərcləri icra edilmiş, özünümaliyyə və büdcənin yerli gəlirləri üzrə proqnozun bütün göstəricilərinə tam əməl edilmişdir.

Başçının verdiyi bu ümumi məlumata əlavə olaraq, əldə etdiyimiz və ümumi uğurlar barədə aydın təsəvvür yaradan fakt və rəqəmləri oxucularımızın nəzərinə çatdırırıq.

**Sahibkarlığın inkişafı.** Keçən il rayonda sahibkarlığın inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlər davam etdirilmişdir. Dövlət tərəfindən göstərilən diqqət və qayğının sayəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 2015-ci ilə ilə nisbətən 47,4 faiz artaraq 14,3 min nəfərə çatmışdır. İri fermer təsərrüfatlarının yaradılması, sənaye məhəllələrinin təşkil edilməsi fəaliyyətin proritet istiqamətidir. Sahibkarlığın inkişaf etdirilməsi üçün SKMF-nin müvəkkil olduğu kredit təşkilatları 269 sahibkara 3071,4 min manat güzəştli kredit verərək, 297 yeni iş yerinin yaradılmasına şərait yaratmışdır. İndiyədək 2811 sahibkara 72,4 milyon manat güzəştli kreditlər verilmiş, bu hesaba 5177 yeni iş yeri yaradılmışdır.

Həyata keçirilmiş kompleks tədbirlər nəticəsində ötən il 11207 yeni iş yeri açılmışdır ki, bunun da 3924-ü daimidir. Bu yerlərin 15-i yeni yaradılmış, 168-i mövcud müəssisə və təşkilatlarda, 3741-i fiziki şəxslər, 7283-ü digər layihələr üzrə yaradılmışdır. Dövlət proqramları qəbul olunandan indiyədək 41202 yeni iş yeri açılmışdır ki, bunun da 18958-i daimidir.

Cari ildə pambıq əkilməsi üçün 1539 nəfərlə müqavilə bağlanmışdır ki, təkcə bu hesaba 17 mindən çox yeni iş yeri deməkdir. Pambıq, şəkər çuğunduru və barama istehsalı üzrə görülən işlər nəticəsində rayonda 20 min yeni iş yeri açılacaqdır.

**Tikinti-quruculuq.** Rayon mərkəzində 1 prospekt və 10 küçədə və Heydər Əliyev adına park-bulvarda abadlıq işləri aparılmış, ərazilərə 4217 metr səki daşları və 1279 metr bardür düzülmüş, 13748 kvadratmetr tamet döşənmişdir. Yollara 8822,6 kubmetr qum-çınqıl və 7912 kvadratmetr çınqıl verilmiş, 120 kvadratmetr istinad divarları tikilmiş, 1367 kvadratmetr asfalt-beton yayılmış, 540 kvadratmetr divarlar rənglənmişdir. 10996 kvadratmetr şəhərdaxili yollar asfaltlaşdırılmışdır. Küçə və meydanlarda, yolların kənarlarında 21 mindən çox ağac və 58 mindən çox gül kolları əkilmişdir.

Əyricə kənd yolunun Tərtər çayı üzərindəki körpü, Qazaxlar kəndində süd emalı müəssisəsi tikilib istifadəyə verilmişdir. Ərazi kənd təsərrüfatı idarəsi, toxumçuluq müfəttişliyi və aqrokimya laboratoriyası tikilmişdir. 480 şagird yerlik Bərdə şəhər 5 saylı tam orta məktəb və Bərdə bələdiyyəsinin inzibati binası təmir edilmişdir.

Bərdə şəhər 2 saylı tam orta, 6 saylı tam orta, Xanqaraqoyunlu kənd tam orta məktəblərində əsaslı təmir və bərpa işləri aparılmışdır. Bərdə peşə liseyinin maddi- texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər davam etdirilmiş, kənd təsərrüfatı maşınları labaratoriyası və yataqxanada, sinif otaqlarında təmir işləri aparılmışdır.

"Bərdə" türbəsinin bərpası, bir sıra kommunal binaların əsaslı təmiri, İmamzadənin təmiri də ötən ilin yenilikləri sırasındadır. Kommunal binalar üçün hər birinin tutumu 220 kubmetr olan 2 çirkab quyusu istifadəyə verilmişdir. 8 kommunal binanın dam örtüyü yenidən qurulmuş, 1 ikimərtəbəli və 9 beşmərtəbəli yaşayış binasının fasad və girişlərində təmir işləri aparılmışdır. 3 beşmərtəbəli və 9 ikimərtəbəli binanın dam örtükləri cari təmir edilmiş, 5 beşmərtəbəli və 1 doqquzmərtəbəli binanın zirzəmisində təmizlik işləri aparılmışdır. H.Əliyev prospektində, küçə və meydanlarda 86 işıqlandırma üçün elektrik dirəkləri quraşdırılmışdır.

**Aqrar sahə.** Ötən il 89 özüyeriyən texnika, 5 traktor yedəyi, 3 asılan və qoşulan kənd təsərrüfatı texnikası dövlət qeydiyyatına götürülmüşdür. 891 özüyeriyən texnikaya, 281 traktor yedəyinə, 142 asılan və qoşulan texnikaya dövlət texniki baxışı keçirilmişdir. Kənd təsərrüfatı əkinlərinə istifadə olunmuş yanacaq və mator yağlarına görə 18283 istehsalçıya 2613894 manat, buğda toxumuna görə 12 nəfərə 284361 manat, yonca toxumuna görə 4 kəndliyə 68640 manat subsidiya verilmişdir. Mineral gübrələrə görə 2488 istehsalçıya 978488 manat güzəşt edilmişdir.

13,7 min hektar taxıl sahəsi biçilmiş, hər hektardan 39,3 sentner buğda və 32,2 sentner arpa olmaqla 51,4 min ton taxıl istehsal edilmişdir. 2015-ci ilə nisbətən buğda istehsalı 3,6 min ton artmışdır.

167 hektar qarğıdalı sahəsindən 1252 ton məhsul toplanmış, hər hektardan 75 sentner dən götürülmüşdür. Qarğıdalı dəni nəzərə alınmaqla rayonda 52,6 min ton taxıl istehsal edilmişdir. İl ərzində tarlalardan 1980 ton kartof, 38425 ton müxtəlif növ tərəvəz, 24915 ton bostan məhsulları, 8161 ton meyvə toplanmışdır. 680 hektar şəkər çuğunduru sahələrinin hər hektardan 548,9 sentner olmaqla 37309 ton məhsul istehsal edilmişdir. 2015-ci ilə nisbətən hər hektardan məhsuldarlıq 46,4 faiz artmışdır.

Yol xəritəsinə uyğun olaraq, rayonda pambıqçılığın və baramaçılığın inkişafı üçün tədbirlər görülmüş, hər hektardan 23,1 sentner olmaqla 6925,3 min ton və ya keçən ildəkindən 2,1 dəfə çox pambıq istehsal edilmişdir.

299 baş ətlik-südlük və 269 baş südlük istiqamətli cins heyvan alınıb gətirilmişdir. Rayonda qaramalın sayı 1,2 faiz artaraq 91436 başa, qoyun və keçilərin sayı 0,6 faiz artaraq 140227 başa çatmışdır. Diri çəkidə 19,2 min ton ət, 79,8 min ton süd, 468 ton yun, 29,9 milyon ədəd yumurta istehsal edilmişdir. 2015-ci ilə nisbətən ət istehsalı 6,3 faiz, süd 15,6 faiz, yun 2,2 faiz, yumurta 0,3 faiz artmışdır. Bakı şəhərində təşkil olunan yarmarkalara 1082 tondan çox müxtəlif kənd təsərrüfatı məhsulları göndərilmişdir.

**Enerji, su təchizatı.** Əhalini və iqtisadiyyatı fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, istilik və içməli su ilə təmin etmək, istehlak edilmiş enerjinin və içməli suyun haqqını tam ödəmək üçün Bərdə Rayon İcra Hakimiyyətinin başçısı yanında komissiya fəaliyyət göstərir. Keçən il Əmirli, Dəymədağıldı, Kərimbəyli və Darğalar kəndlərinin, Güloğlular kəndinin yeni yaşayış məhəlləsinin elektrik şəbəkələri yenidən qurulmuşdur. Rayon ərazisndə 14 yeni KTM quraşdırılmışdır. 612 ədəd 10 kv-luq, 3612 ədəd 0,4 kv-luq yeni beton və metal dirəklər basdırılmışdır.

Rayonda ötən il 287,8 kilometr müxtəlif diametrli qaz xətləri çəkilərək 13 kənd qazlaşdırılmış, 3675 abonentə təbii qaz verilmişdir. Hazırda 3 kənd qazlaşdırılır. Yaxın vaxtlaradək Lənbəran, Otuzikilər və Mollalı kəndlərinin qazlaşdırılmasının başa çatdırılması, 5 kəndin qazlaşdırılması üçün layihə-smeta sənədləri hazırlanır. Bu ilin birinci yarısınadək rayonun bütün kəndləri təbii qazla təmin ediləcəkdir.

2016-cı ildə mövcud 10 istilik-qazanxana sistemində təmir işləri aparılaraq istifadə edilmişdir.

Əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması üçün 4 kənddə artezian quyusu vurulmuş, 8 kənddə 25,87 kilometr yeni içməli su xətti çəkilmiş, 6 çən quraşdırılmış, 86 bulaq istifadəyə verilmişdir. Rayon mərkəzində 22 subartezian quyusunun dərinlik nasosu yenisi ilə əvəz olunmuş, 98 quyunun nasosları və 3 quyunun transformatoru əsaslı təmir edilmişdir. 824 su qəzası aradan qaldırılmışdır.

Bunlarla yanaşı, rayon mərkəzinin ətraf 9 kəndlə birlikdə kanalizasiya və içməli su şəbəkəsinin tikilməsi üçün müvafiq tədbirlər görülür.

**Təhsil, səhiyyə, mədəniyyət.** Ötən il rayonun təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər davam etdirilmişdir. İlk dəfə olaraq ümumtəhsil məktəblərində fəaliyyət göstərən 71 məktəbəhazırlıq qrupuna 1022 uşaq qəbul olunmuşdur. İl ərzində daha 10 məktəb internet şəbəkəsinə qoşularaq, onların sayı 53-ə çatmışdır.

Məzunlardan 666 nəfəri ali məktəblərə qəbul üçün iş vermiş, onlardan 471 nəfəri və ya 71 faizi keçid balı toplamışdır. Rayonun tarixində ilk dəfə olaraq onlardan 402 nəfəri və ya 57,5 faizi ali məktəblərə qəbul olmuşdur. 82 nəfər 500-dən, o cümlədən 31 nəfər 600-dən yuxarı bal toplamışdır. 13 nəfər hərbi məktəblərə daxil olmuşdur.

İl boyu 121999 nəfər tibbi müayinədən keçmiş, 548 xəstə stasionar, 482 nəfər ambulator müalicəyə cəlb edilmişdir. 302 nəfər müayinə və müalicə üçün Bakı şəhərinin klinikalarına göndərilmişdir.Rayonun xəstəxanalarına 8060 xəstə daxil olmuş, o cümlədən 397 təxirəsalınmaz cərrahi əməliyyat aparılmışdır. 48796 nəfər peyvənd edilmişdir. Xəstəxanalara 114,9 min manatlıq ərzaq məhsulları alınmışdır.

**Əhali ilə iş.** Bərdə RİH Başçısının Aparatına daxil olan vətəndaş müraciətlərinin 24,8 faizi tam və 5,7 faizi qismən həll olunmuş, 7,9 faizi əsassız sayılmış, 52,8 faizinə müvafiq izahat verilmiş, 25-nin icrası dövlət proqramında nəzərdə tutulmuşdur. Aparatın şöbələri 20911 nəfəri, o cümlədən RİH başçısı 2245 nəfəri qəbul etmişdir. Rayon icra hakimiyyəti başçısının yerlərdə 42 səyyar qəbulu keçirilmiş, bu görüşlərdə 11260 sakinin iştirakı təmin edilmiş, 409 nəfərin müraciəti dinlənilmişdir. Apellyasiya Şurasında 3 sahibkar müraciəti araşdırılmış və müvafiq qərar qəbul edilmişdir.

Göründüyü kimi, rayon rəhbərliyinin dövlətin fəal yardımından bacarıqla istifadə edilməsi, yerli ehtiyatların hərəkətə gətirilməsi istiqamətində təşəbbüskar işi adamları yeni uğurlar qazanılmasına səfərbər etmişdir. Rayonda insan amilinə, əhalinin gündəlik ehtiyaclarına, sakinlərin arzu və istəklərinə həssas münasibət ötən il də sosial-iqtisadi hədəflərin gerçəkləşdirilməsini təmin etmiş, bununla yanaşı, cari ilin vəzifələrinin də uğurla həyata keçirilməsinə geniş meydan açmışdır.











***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***